**1998-ci il mayın 21-də Moskva şəhərində imzalanmış "Moldova Respublikası, Ukrayna, Belarus Respublikası və Rusiya Federasiyasının gömrük xidmətləri arasında meyvə-tərəvəz məhsullarının gömrük rəsmiləşdirilməsi zamanı güzəştlərin təqdim edilməsi haqqında Saziş"in, 1999-cu il mayın 14-də Kiyev şəhərində imzalanmış həmin Sazişin 3-cü maddəsinin icrası haqqında Protokolun və 2001-ci il iyunun 7-də Moskva şəhərində imzalanmış həmin Sazişin fəaliyyət müddətinin uzadılması haqqında Protokolun təsdiq edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

1. 1998-ci il mayın 21-də Moskva şəhərində imzalanmış "Moldova Respublikası, Ukrayna, Belarus Respublikası və Rusiya Federasiyasının gömrük xidmətləri arasında meyvə-tərəvəz məhsullarının gömrük rəsmiləşdirilməsi zamanı güzəştlərin təqdim edilməsi haqqında Saziş"in, 1999-cu il mayın 14-də Kiyev şəhərində imzalanmış həmin Sazişin 3-cü maddəsinin icrası haqqında Protokolun və 2001-ci il iyunun 7-də Moskva şəhərində imzalanmış həmin Sazişin fəaliyyət müddətinin uzadılması haqqında Protokol **təsdiq edilsin.**

2. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Moldova Respublikası, Ukrayna, Belarus Respublikası və Rusiya Federasiyası tərəflərini xəbərdar etsin.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 29 aprel 2003-cü il**
**№ 1210**

**Moldova Respublikası, Ukrayna, Belarus Respublikası və Rusiya Federasiyasının gömrük xidmətləri arasında meyvə-tərəvəz məhsullarının gömrük rəsmiləşdirilməsi zamanı güzəştlərin təqdim edilməsi haqqında**

**SAZİŞ**

Bundan sonra Tərəflər adlandırılan bu Sazişin iştirakçıları olan gömrük xidmətləri,

Gömrük xidmətlərinin əməkdaşlığı yolu ilə meyvə-tərəvəz məhsullarının yük, tranzit axınının inkişafı və sürətləndirilməsinə yardım etməyə çalışaraq,

Müstəqil Dövlətlər Birliyi iştirakçı — dövlətlərinin gömrük xidmətləri arasında gömrük sərhədlərində gömrük rəsmiləşdirilməsi prosedurlarının sadələşdirilməsi və unifikasiyası haqqında 8 iyul 1994-cü il tarixli Sazişin 10-cu Maddəsini rəhbər tutaraq,

Tərəflər dövlətlərin ərazisində yollarda meyvə-tərəvəz məhsullarının daşınması üçün maneəsiz şərtlərin təmin edilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər:

a) Tərəf dövlətlərin ərazisində istehsal olunan meyvə-tərəvəz məhsullarının gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi üzrə razılaşdırılmış tədbirlər görürlər;

b) bir-birlərinin gömrük təminatlarını (plomblar, möhür şəkilləri, möhürlər, ştamplar), gömrük sənədlərini tanıyırlar, zəruri hallarda isə, keçirilən məhsullara öz gömrük təminatlarını vururlar.

Maddə 2

Tərəf dövlətlərin ərazisində istehsal olunan meyvə-tərəvəz məhsulları gömrük ərazisindən növbədənkənar qaydada buraxılır.

Maddə 3

Tərəf dövlətlərin dövlət ərazisində meyvə-tərəvəz məhsullarının mənşəyini təsdiq edən sənədlər kimi, malların ST-1 formalı mənşə sertifikatını, yaxud malların mənşə ölkəsinə dair məlumatları əks etdirən yük nəqliyyat və malları müşayiət edən digər sənədləri tanımaq.

Bu maddənin müddəaları Ukrayna tərəfindən tranzit keçirilən meyvə-tərəvəz məhsulları ilə bağlı tətbiq edilir.

Maddə 4

Bu Saziş imzalandığı andan qüvvəyə minir.

Maddə 5

Bu Saziş imzalandığı andan üç il müddətinə bağlanılır.

Moskva şəhərində 21 may 1998-ci il tarixdə hər biri eyni qüvvəyə malik olan 4 nüsxədə imzalanmışdır.

| | |
|---|---|
| **Moldova Respublikası gömrük xidməti adından** | **Belarus Respublikası gömrük xidməti adından** |

| | |
|---|---|
| *(imza)* | *(imza)* |
| **Ukrayna gömrük xidməti adından** *(imza)* | **Rusiya Federasiyası gömrük xidməti adından** *(imza)* |

Moldova Respublikası, Ukrayna, Belarus Respublikası və Rusiya Federasiyasının gömrük xidmətləri arasında meyvə-tərəvəz məhsullarının gömrük rəsmiləşdirilməsi zamanı güzəştlərin təqdim edilməsi haqqında 21 may 1998-ci il tarixli Sazişin 3-cü maddəsinin icrası haqqında
PROTOKOL

14 may 1999-cu il Kiyev şəhəri,

Moldova Respublikası, Ukrayna, Belarus Respublikası və Rusiya Federasiyasının gömrük xidmətləri yuxarıda göstərilən Sazişin 3-cü maddəsinin icrası məqsədilə aşağıdakılar barədə qərara gəldilər:

1. Meyvə-tərəvəz məhsullarının mənşə ölkəsinə dair məlumatları əks etdirən malları müşayiət edən sənəd kimi, məhsulun mənşəyinə dair Moldova Respublikasının gömrük orqanları tərəfindən verilən və təsdiq edilən aşağıdakı forma və məzmunlu sənədi tanımaq:

**Nümunə**

Moldova Respublikası Gömrük Nəzarəti Departamenti

təsdiq edir ki, __________ №-li YGB ilə
hərəkət edən mal Moldova mənşəlidir

**Gömrükxana**
_______________ **İnspektor** _______________

**Şəxsi möhür**

2. Bu Protokol imzalandığı andan qüvvəyə minir.

| | |
|---|---|
| **Moldova Respublikası gömrük xidməti adından** *(imza)* | **Belarus Respublikası gömrük xidməti adından** *(imza)* |

| | |
|---|---|
| **Ukrayna gömrük xidməti adından** *(imza)* | **Rusiya Federasiyası gömrük xidməti adından** *(imza)* |

Moldova Respublikası, Ukrayna, Belarus Respublikası və Rusiya Federasiyasının gömrük xidmətləri arasında meyvə-tərəvəz məhsullarının gömrük rəsmiləşdirilməsi zamanı güzəştlərin təqdim edilməsi haqqında 21 may 1998-ci il tarixli Sazişin fəaliyyət müddətinin uzadılması haqqında
PROTOKOL

Bundan sonra Tərəflər adlandırılan meyvə-tərəvəz məhsullarının gömrük rəsmiləşdirilməsi zamanı güzəştlərin təqdim edilməsi haqqında 21 may 1998-ci il tarixli Sazişin iştirakçıları olan gömrük xidmətləri,

Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətlərinin ərazilərində meyvə-tərəvəz məhsullarının daşınması üçün maneəsiz şərtlərin təmin edilməsi məqsədilə,

meyvə-tərəvəz məhsullarının gömrük rəsmiləşdirilməsi zamanı güzəştlərin təqdim edilməsi haqqında 21 may 1998-ci il tarixli Sazişin fəaliyyət müddətinin 21 may 2001-ci il tarixdə başa çatdığını nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

1. Moldova Respublikası, Ukrayna, Belarus Respublikası və Rusiya Federasiyasının gömrük xidmətləri arasında meyvə-tərəvəz məhsullarının gömrük rəsmiləşdirilməsi zamanı güzəştlərin təqdim edilməsi haqqında 21 may 1998-ci il tarixli Sazişin fəaliyyət müddəti iki il müddətinə uzadılsın.

2. Bu Protokol imzalandığı andan qüvvəyə minir.

3. Moskva şəhərində 7 iyun 2001-ci il tarixdə hər biri eyni qüvvəyə malik olan 4 nüsxədə imzalanmışdır.

| | |
|---|---|
| **Moldova Respublikası gömrük xidməti adından** *(imza)* | **Belarus Respublikası gömrük xidməti adından** *(imza)* |
| **Ukrayna gömrük xidməti adından** *(imza)* | **Rusiya Federasiyası gömrük xidməti adından** *(imza)* |